Yazan
01.08.13 14:14 -

Tiflis şəhər məhkəməsi Gürcüstanın keçmiş müdafiə naziri Baço Axalaya və Silahlı Qüvvələrin sabiq baş qərargah rəisi Qiqi Kalandadzeyə bəraət verib. Təqsirləndirilən şəxslər biznesmen Zviad Abuseridzeni qanunsuz azadlıqdan məhrum edilməsi, vəzifə səlahiyyətlərini aşması maddələri üzrə günahsız biliniblər. Lakin məhkəmə 2006-cı ildə Tiflis həbsxanada qiyamın təşkil edilməsi və Müdafiə Nazirliyinin yeddi xüsusi təyinatlısına işgəncə edilməsi ittihamını hələlik qüvvədə saxlayıb.

Hazırda B. Axalaya və Q. Kalandadze müvəqqəti həbs yerində saxlanılır. Hər ikisi ittihamların siyasi motivlərin olduğunu bildirirlər.